# Mərkəzi Asiya ölkələrinə həsr olunmuş toplu

**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda ”Страны Центральной Азии: история, общество и культура” (Mərkəzi Asiya ölkələri: tarix, cəmiyyət və mədəniyyət) adlı məqalələr toplusu işıq üzü görüb.**




Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya ölkələri şöbəsində hazırlanan toplunun elmi redaktoru və layihənin rəhbəri şöbənin müdiri, filologiya elmləri doktoru, professor Lalə Əhmədovadır.

Topluda Mərkəzi Asiya regionunda ictimai-siyasi, tarixi, sosial-mədəni proseslərlə bağlı məsələlər nəzərdən keçirilir. Kitabda müxtəlif alimlərin Mərkəzi Asiya regionunda baş verən proseslərə siyasi, tarixi baxışları işıqlandırılır. Müəlliflər diqqəti milli identiklik, mədəni inteqrasiya və tarixi yaddaş məsələlərinə yönəldirlər. Bu nəşr Mərkəzi Asiyada həyata keçirilən müasir elmi araşdırmaların nəticələrini əks etdirməklə regional elmin inkişafına yardımçı olur.

Topluda Qazaxıstandan akademik Karlıqaş Nuqmanova, Qırğızıstan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru siyasi elmlər doktoru Baktıkan Torogeldiyev, Qazaxıstan Milli Xoreoqrafiya Akademiyasının professoru filologiya elmləri doktoru Janna Tolısbayeva, eləcə də AMEA-nın Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya şöbəsinin əməkdşalarından şöbə müdiri, filologiya elmləri doktoru, professor Lalə Əhmədova, baş elmi işçi, siyasət elmləri doktoru Adil Mirabdullayev və başqalarının məqalələri yer alır.

Elm .- 2025.-19 dekabr (№41).- S.6.